# QARABAĞ REGİONUNUN İNKİŞAFINDA "YAŞIL İQTİSADİYYAT"IN ROLU

**Afət Məmmədova**

*Bakı Dövlət Univeristeti, m.afet@mail.ru*

"Yaşıl iqtisadiyyat", qapalı iqtisadiyyat və bioiqtisadiyyat kimi mövzular siyasət, elmi-tədqiqat və biznes davamlılığında təminat üçün makrosəviyyədə müzakirələrə səbəb olan prioritetdir. "Yaşıl iqtisadiyyat" onun inteqrasiya cəhdləri baxımından çox mürəkkəb bir strukturdur, davamlı inkişafın təminatı üçün ayrı-ayrılıqda iqtisadi, sosial və ekoloji problemlərin həllini müəyyənləşdirib birgə təşviq edə bilən yol, təklif edilən "paket"dir. Bu, iqtisadiyyatın ekologiyalaşma proseslərinin tənzimlənməsi üçün zəruri olan idarəetmə nəticələrini və formalarını müəyyənləşdirərək, sosioloji tədqiqatlar qarşısında yeni empirik və nəzəri vəzifələr qoyur; bu, sosial-ekoloji gələcəyi təmin edə bilən yoldur.

Qarabağ bölgəsi 30 il ərzində kifayət qədər deqradasiyaya uğraymışdır. Təbii canlı resursların məhvi, qiymətli yeraltı sərvətlərin çıxarılması və ilkin emalı, çayların çirkləndirilməsi, torpaqların deqradasiyaya uğraması ətraf mühitə illərlə zərbələr vurmuşdur. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında qüdrətli dövlət və yüksək rifah cəmiyyətinin davamlı qurulması və idarə edilməsi üçün əsas hədəflərdən biri də işğaldan azad edilmiş ərazilərdətəmiz ətraf mühit, "yaşıl şəhər", "yaşıl kənd", "yaşıl artım", "yaşıl iqtisadiyyat", 'yaşıl texnologiyalar" kimi anlayışların tədbiq olunub həyata keçirilməsidir. Ölkədə təbii resurslardan rasional istifadə və ətraf mühitin mühafizəsi sferasında olan bütün ekoloji çağırışlar, o cümlədən layihələr, tədbirlər ekoloji böhranları yumşaltmağa doğru yönəlir. İşgaldan azad olmuş ərazilərdə abadlıq işlərinin aparılması, "yaşıl şəhər" və "yaşıl" və "ağıllı" kəndlərin layihələndirilməsi dövrümüzün tələblərinə cavab verir. Müasir cəmiyyətin inkişafında əsas məsələrdən biri iri şəhərləri salarkən təbii resursların və intellekt kapitalının effektiv istifadə imkanlarının diqqət mərkəzinə qoyulmasıdır. Eyni zamanda iqtisadi, sosial və ekoloji tələbləri yerinə yetirmək üçün çox sayda göstərici parametrlər, ölçmələr və hesablamalara geniş yer verilir ki, bu da alqoritmlərin, modellərin qurulmasına və ərazilərin rəqəmsal iqtisadiyyatdan istifadə edərək məlumatların emal edilməsinə gətirib çıxarır. Qeyd edilənlər öz növbəsində cəmiyyətin üç komponentli inkişafına ("yaşıl" iqtisadiyyat, innovasiya, ekoloji informatika) ehtiyac olmasını önə çəkir. Yaranmış vəziyyət Qarabağ regionunda təbiətdən rasional istifadə və ətraf mühitin mühafizəsi problemlərinin ayrı-ayrılıqda daha dərindən müşahidə və təhlil olunmasını tələb edir. Atmosfer və sulara atılan tullantıların monitorinqi və biomüxtəlifliyin mühafizəsi, yenidən bərpası məsələlərinin həlli daha sadə, iqtisadi cəhətdən əlverişli, müasir metodlarla, az zərər vurmaqla daha çox informasiya toplamaq, erkən proqnozlaşma vermək, prosesləri modelləşdirmək kimi məsələləri qarşıya vəzifə olaraq qoyur.

Yenidənqurma zamanı kənd təsərrüfatı və aqrar sahəni inkişaf etdirməklə torpaqların və atmosfer havasının təmişlənməsinə, bərpasına nail olmaq olar. Əkin və meşə sahələrinin salınması eyni zamanda yaşıllaşmanın artırılması istiqamətində planlaşdırıla bilər. Mühit üçün əlverişli bitki və heyvan növlərinin introduksiya edilməsi məsələsi mütəxəssis alimlərin tədqiqat obyekti kimi önə çəkilməlidir. Burada bioloji tədqiqatlarla bərabər eyni vaxtda ekoloji araşdırmaların aparılmasına ehtiyac vardır. Ekoloji qiymətləndirmə, ekoloji planlama və idarəetmə həyata keçirilməlidir. Dövlət proqramları və layihələr elan edilməli, ekoloji təhlükəsiz texnologiyalardan istifadə etməklə tədqiqatlar aparılmalıdır. Planlama və idarəetmə cəmiyyətin rifahının optimallaşmasına yönəlməlidir. Cəmiyyətin rifahının yüksəlməsi ekosistemlərdən birbaşa asılıdır. Qiymətli məhsullar ekosistemlərdən insan həyatına daxil olur. Qida məhsulları, dərman materialları, tikinti və geyim və s. təbii ekosistemlərdən daxil olur. Təbii ekosistemlərin estetik və mədəni aspektləri insanlar tərəfindən dəyərləndirilir. Ancaq iiqtisadiyyatın nə dərəcədə təbii ekosistemlərdən asılı olması in-

sanlara çox az dərəcədə məlumdur. Ekosistemlərin monitorinqi zamanı bioloji proseslər iqtisadi analiz edilməli və idarəetmədə istifadə edilməlidir.

Qarabağ regionunun biomüxtəlifliyi, torpaq və atmosfer, su mühitlərinin tədqiq edilməsi, təhlillərin, proqnoz və planlamaların aparılması zamanı ekoloji və iqtisadi sərmayələrin genişləndirilməsinə kömək etmək üçün ən yaxşı təcrübələrin Azərbaycana köçürülməsi tətbiqi problemlərin düzgün həlli yollarında vacib amildir. "Yaşıl məkan", "yaşıl iqtisadiyyat" prinsiplərinin elmi, nəzəri və praktik cəhətdən "ağıllı" istifadəsini təmin etmək üçün universitetlərdə "Bioiqtisadiyyat" ixtisasında tədris aparılmalı və təhsilin keyfiyyəti yüksəldilməli, əmək bazarında tələblərə cavab verə bilən kadrlar hazırlanmalıdır. Nyu-York, Honqkonq, London, Amsterdam, Sinqapur kimi şəhərlərdə "ağıllı şəhər" məfhumu daha çox tətbiq edilir və bunun nəticəsində həmin şəhərlər dünyada turistik mərkəzlər kimi tanınır.

Düşünürəm ki, ölkədə Bioiqtisadiyyat fondunun yaradılması məqsədəuyğun olardı. Qarabağ regionunda davamlı inkişafa nail olmaq üçün bioiqtisadi, o cümlədən "yaşıl iqtisadiyyat", "yaşıl artım" innovasiyaların yaranmasında katalizator rolu oynayacaq və iqtisadi sistemin yeni yollarını müəyyən etməyə şərait yaradacaq.